# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİ MİLLİ MƏDƏNİYYƏTİMİZİN BAYRAMIDIR



Yeni Azərbaycan dövlətinin qurucusu, ümummilli lider cənab Heydər Əliyev xalqımızın müstəqilliyinin qazanılmasında mədəniyyət, incəsənət xadimlərinin əməyini, xidmətlərini yüksək dəyərləndirərək deyirdi: "Azərbaycanın milli azadlığı, istiqlaliyyəti yolunda ən çox bizim ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz xidmətlər göstəribdir."

Həqiqətən də Xalq Cümhuriyyətinin qurulması, təşəkkülü və formalaşması prosesində milli mədəniyyətimizin, incəsənətimizin rolu müstəsna əhəmiyyət kəsb edir. Sənət adamları cəmiyyətdə milli şüurun oyanışına, dünyagörüşünün genişlənməsinə səy göstəriblər. Xalqımızın mənəvi sərvətlərinin zənginləşməsi, istiqlal ruhunun möhkəmlənməsi, dilimizin, adət-ənənələrimizin qorunması, yaşadılması və təbliği mədəniyyət, incəsənət xadimlərinin fəaliyyəti ilə sıx bağlıdır.

Cümhuriyyət dövrünün mədəniyyət siyasətinin ideya istiqamətlərini Üzeyir Hacıbəylinin musiqi yaradıcılığı, Abbas Mirzə Şərifzadənin, Mirzəağa Əliyevin teatr fəaliyyəti, Cabbar Qaryağdının, Seyid Şuşalının ifaçılıq sənəti, Əzim Əzimzadənin, Bəhruz Kəngərlinin əlvan rənglər palitrası müəyyən edirdi. Cümhuriyyət dövründə ilk milli "İstiqlal" muzeyi, dövlət teatrı yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında imzaladığı sərəncamda yazır: "1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil olundu, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü."

Respublika Prezidentinin bu il 10 yanvar tarixli ikinci sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmiş, yubiley münasibətilə görüləcək işlərin tutumlu, miqyaslı tədbirlər planı işlənib hazırlanmışdır.

Bu əlamətdar yubiley Azərbaycanın dövlətçilik tarixinin, müstəqillik illərində əldə etdiyi uğurların bütün dünyada daha geniş şəkildə tanıdılması üçün əlverişli fürsətdir. Bununla bağlı çoxsaylı tədbirlərin keçirilməsi nəzərdə tutulur. Müxtəlif qurumlara tədbirlərin keçirilməsi ilə bağlı ünvanlanan müraciətə cavab olaraq çoxsaylı təkliflər alınıb. Təkliflər ümumiləşdirilib, yubiley ilə əlaqədar rəmzi olaraq onlardan 100-ü Tədbirlər Planının layihəsinə daxil edilib.

Hamınızı Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin 100 yaşı münasibətilə təbrik edirəm! İnanıram ki, bu yubiley ölkəmizin daxilində və onun hüdudlarından kənarda milli birlik və mədəniyyət bayramına çevriləcəkdir.

Əbülfəs Qarayev
Azərbaycan Respublikasının
mədəniyyət naziri